# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ VƏ ÇİN XALQ RESPUBLİKASININ BAŞ GÖMRÜK ADMİNİSTRASİYASI ARASINDA ÇİN XALQ RESPUBLİKASINA İXRAC EDİLƏN AKVAKULTURA MƏHSULLARININ YOXLANILMASI VƏ KARANTİN TƏLƏBLƏRİNƏ DAİR PROTOKOL

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Çin Xalq Respublikasının Baş Gömrük Administrasiyası dostcasına məsləhətləşmələr yolu ilə Çinə ixrac edilən akvakultura məhsullarının yoxlanılması və karantin tələblərinə dair aşağıdakı razılığa gəldilər:

**Maddə 1**

Bu Protokolun həyata keçirilməsində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - AQTA) və Çin Xalq Respublikasının Baş Gömrük Administrasiyası (bundan sonra - ÇBGA) müvafiq olaraq Azərbaycanın və Çinin səlahiyyətli orqanları kimi fəaliyyət göstərirlər.

**Maddə 2**

Bu Protokolda qeyd olunan akvakultura məhsulları dedikdə, insan istehlakı üçün yararlı olan yetişdirilmiş su heyvanları və onların emal məhsulları, dəniz bitkiləri və onların emal məhsulları (məsələn, yosunlar və s.) nəzərdə tutulur. Lakin bura amfibiyalar, sürünənlər, su məməliləri, diri su heyvanları, habelə su heyvanlarının və bitkilərinin artırılma (çoxalma) materialları daxil deyil.

Akvakultura məhsullarının siyahısı bu Protokola əlavə edilir.

**Maddə 3**

Çinə ixrac edilməsi nəzərdə tutulan akvakultura məhsullarının istehsalı, emalı və saxlanılması müəssisələri də daxil olmaqla, müvafiq müəssisələr Azərbaycanın səlahiyyətli orqanları tərəfindən təsdiq edilir, effektiv nəzarət altında saxlanılır və həmin müəssisələrin qida təhlükəsizliyi, sanitariya və mühafizə sistemi Çinin qida

təhlükəsizliyi ilə bağlı müvafiq qanun və qaydalarının tələblərinə cavab verir.

Çinə akvakultura məhsulları ixrac etmək niyyətində olan müəssisələr AQTA tərəfindən Çin Xalq Respublikasının Qida Təhlükəsizliyi Qanunu və onun tətbiqi qaydaları, habelə Çin Xalq Respublikasının Heyvan və Bitki Karantini haqqında Qanunu və onun tətbiqi qaydalarına uyğun olaraq, qeydiyyatdan keçirilmək üçün ÇBGA tövsiyə edilir. Qeydiyyatdan keçməyən müəssisələrdən akvakultura məhsullarının Çinə ixracına icazə verilmir.

AQTA ÇBGA-ya tövsiyə olunan və siyahı əsasında qeydiyyat üçün müraciət edən istehsalçıların rəsmi siyahısını təqdim edə bilər. Bundan əlavə, siyahıda müvafiq müddəalara uyğun olaraq, qeydiyyat üçün tələb olunan müvafiq müraciət materialları da öz əksini tapmalıdır. ÇBGA baxış keçirdikdən sonra siyahıdakı tələblərə cavab verən istehsalçıları qeydiyyata alır. Tələblərə cavab verməyən istehsalçılar qeydiyyata alınmır.

**Maddə 4**

AQTA Çin Xalq Respublikasına ixrac edilən akvakultura məhsullarının aşağıdakı tələblərə uyğunluğunu rəsmi şəkildə təsdiq edir:

(i) Akvakultura məhsulları daxili sularda yetişdirilmiş və ya Çin Xalq Respublikasına idxala icazə verdiyi ölkələrdən və ya regionlardan gətirilir;

(ii) Xammal və məhsullar bu Protokolun 6-cı maddəsində qeyd edilən hallardan azaddır;

(iii) Çin tərəfindən qadağan edilmiş hər hansı bir preparat və ya əlavələrdən birbaşa və ya dolayı yolla istifadə olunmur və Çin tərəfin məhdudiyyət tətbiq etdiyi və ya icazə verdiyi preparat və ya əlavələr qaydalara uyğun olaraq istifadə edilir;

(iv) Səlahiyyətli orqan tərəfindən yoxlama və karantin nəzarət tədbirləri görülmüş akvakultura məhsulları Çinin qanun və qaydalarında əks olunmuş patogen mikroorqanizmlərdən, zəhərli və zərərli maddələrdən, yad cisimlərdən, *Çin Xalq Respublikasına idxal edilən heyvanlar üzrə karantin xəstəlikləri Siyahısında* sadalanan və ya Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına (ÜHST) məlumat verilməsi tələb olunan yoluxucu xəstəlik, parazitar və su heyvanı xəstəliklərindən azaddır;

(v) Akvakultura məhsulları üzrə bütün proseslər, o cümlədən yetişdirilməsi, emalı, qablaşdırılması, saxlanılması, daşınması, yerinin dəyişdirilməsi və ixracı Çinin təhlükəsizlik, sağlamlıq və izlənilə bilmə tələblərinə cavab verir;

(vi) Akvakultura məhsullarının qablaşdırılması və etiketlənməsi Çinin milli qida təhlükəsizliyi standartlarına və qida təhlükəsizliyi üzrə idxal tələblərinə uyğundur.

**Maddə 5**

AQTA ÇBGA-nın tələblərinə uyğun olaraq, Çinə ixrac edilməsi nəzərdə tutulan akvakultura məhsulları üzrə yoxlanılma və karantin nəzarət tədbirlərinin görülməsinə və akvakultura məhsullarının Çinin qida təhlükəsizliyi üzrə müvafiq qanun, qaydalar və milli standartlara uyğunluğunu təsdiq etmək üçün məhsulların hər bir partiyasına hər iki tərəfin əvvəlcədən qarşılıqlı razılaşdırdığı sağlamlıq sertifikatın verilməsinə cavabdehdir. Sertifikat Azərbaycan, Çin və ingilis dillərində yazılır və sertifikat doldurularkən ingilis dili təsdiqedici dil olaraq seçilir. Çinə akvakultura məhsulları ixrac etmək niyyətində olan müəssisə barədə məlumat sertifikata daxil edilir. Qeydə alınmaq məqsədilə, AQTA ÇBGA-nı sertifikat və rəsmi möhürlərin nümunəvi formaları ilə təmin edir. Hər hansı dəyişikliklər və ya düzəlişlər olduqda, AQTA dəyişikliklərin qüvvəyə minməsindən azı bir ay əvvəl ÇBGA-nı məlumatlandırır.

**Maddə 6**

Əgər aşağıdakı hallardan biri baş verərsə:

(i) Çinə ixrac edilən və ixrac ediləcək akvakultura məhsulları Çinin qanun, qaydalar və milli standartlarını və bu Protokolun müddəalarını ciddi şəkildə pozur;

(ii) Azərbaycan Respublikasında, bu Protokolda qeyd edilən akvakultura məhsulları ilə bağlı olan və Çin Xalq Respublikasına idxal olunan heyvanlar üzrə karantin xəstəlikləri Siyahısında olan və ya ÜHST-ə məlumat verilməsi tələb olunan su heyvanı xəstəlikləri yayılmış və Çinə ixrac edilən akvakultura məhsullarının təhlükəsizliyinə ciddi şəkildə təsir göstərmişdir;

(iii) Azərbaycanda qida təhlükəsizliyi böhranı, müəssisədə ictimai sağlamlıq üçün risk yaradan halların aşkar edilməsi və ya ferma ərazisinin çirklənməyə məruz qalması Çinə ixrac edilən akvakultura məhsullarının təhlükəsizliyinə təsir göstərmişdir.

AQTA müvafiq təsərrüfatlardan, müəssisələrdən, akvakultura bölgələrindən

və ya hətta bütün ölkədən Çinə ixrac ediləcək akvakultura məhsullarının göndərilməsini dərhal dayandırır, problemli və ya potensial risk daşıyan məhsulları geri çağırır, bu barədə ÇBGA-nı məlumatlandıraraq, baş vermiş hadisənin araşdırılması, aradan qaldırılması və növbəti nəzarət tədbirləri barədə ÇBGA-a ətraflı məlumat təqdim edir. Bu hallarda, AQTA və ÇBGA arasında danışıqlar aparıla bilər. Yalnız ÇBGA-dan risklərin aradan qaldırıldığını və ya nəzarət edilə bilən səviyyəyədək məhdudlaşdırıldığını təsdiq etdikdə, məhsullar yenidən Çinə ixrac edilə bilər.

**Maddə 7**

Çin Gömrüyü Çinə ixrac edilən akvakultura məhsullarının Çinin qida təhlükəsizliyi üzrə qanunlar, qaydalar, standartlarına və bu Protokola uyğun olaraq yoxlanılmasını və karantin nəzarət tədbirlərini həyata keçirir.

Yararsız məhsullar üçün məhv edilmə, geri qaytarılma və digər tədbirlər tətbiq edilir. Məhsullarında ciddi və ya təkrarlanan uyğunsuzluqlar aşkar edilən müəssisələr intensiv yoxlama və karantin tədbirlərinə məruz qalacaq və ya onların Çinə ixracı dayandırılacaq.

**Maddə 8**

AQTA qida təhlükəsizliyi sahəsində idarəetmə sistemlərinin davamlı effektivliyini və Çinin qida təhlükəsizliyi üzrə qanunlarının, qaydalarının və standartlarının, eləcə də Çinin tərəfdar çıxdığı və ya qoşulduğu hər hansı beynəlxalq müqavilə və ya sazişlərin tələblərinə cavab verdiyinə zəmanət verir.

ÇBGA video inspeksiya və ya yerində inspeksiya yolu ilə Azərbaycanın qida təhlükəsizliyi idarəetmə sisteminə baxış və retrospektiv qiymətləndirməsinin həyata keçirilməsi üçün mütəxəssisləri cəlb edə bilər. Azərbaycanın səlahiyyətli orqanından və müvafiq müəssisələrindən aşkar edilmiş hər hansı uyğunsuzluqla bağlı düzəlişedici tədbirin görülməsi tələb oluna bilər. Azərbaycan tərəfi qiymətləndirmə və yoxlanılma üçün zəruri köməkliyi təmin edir.

**Maddə 9**

Bu Protokolun təfsiri və icrası ilə bağlı yarana biləcək hər hansı fikir ayrılığı

tərəflər arasında danışıqlar yolu ilə həll edir.

**Maddə 10**

Hər iki tərəfin qarşılıqlı razılığı ilə bu Protokola onun ayrılmaz hissəsi olan və bu Protokolun 11-ci maddəsinə müvafiq olaraq qüvvəyə minən ayrıca protokollar formasında istənilən dəyişikliklər edilə bilir.

Bu Protokol beynəlxalq müqavilə deyil və beynəlxalq hüquqla tənzimlənən hüquq və öhdəliklər yaratmır.

**Maddə 11**

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və beş (5) il müddətə qüvvədə qalır.

Tərəflərdən biri bu Protokolun bitmə tarixindən ən azı altı (6) ay əvvəl digərinə onu dəyişdirmək və ya ləğv etmək niyyəti barədə yazılı bildiriş verməzsə, bu Protokol avtomatik olaraq beş (5) illik müddətlər üçün yenilənəcəkdir. Bir Tərəf digər Tərəfə yazılı bildiriş verməklə bu Protokolu ləğv edərsə, Protokol digər Tərəfin yazılı bildirişi aldığı tarixdən altı (6) ay sonra qüvvəsini itirir.

Protokol Pekin şəhərində, 11 İyun 2026-cı il tarixində hər biri Azərbaycan, çin və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edir.

**Azərbaycan Respublikasının**
**Qida Təhlükəsizliyi Agentliyi**
**adından**

**Çin Xalq Respublikasının**
**Baş Gömrük Administrasiyası**
**adından**

**Əlavə: Azərbaycandan Çinə ixrac ediləcək akvakultura məhsullarının siyahısı:**

| NO | İngilis dilində adı | Elmi adı | Sinifi | Dəstə | Familyası | Cinsi | Yetişdirmə metodu | Bütün suların terotoriyası (Dəniz suyu vəya şirin su) |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Beluga | Huso Huso | Chondrostei | Acipenseriformes | Acipenseridae | Acipenser | Göl | Şirin su |
| 2 | Danube sturgeon | Acipenser Gueldenstaedtii | Chondrostei | Acipenseriformes | Acipenseridae | Acipenser | Göl | Şirin su |
| 3 | Sterlet sturgeon | Acipencer Ruthenus | Chondrostei | Acipenseriformes | Acipenseridae | Acipenser | Göl | Şirin su |
| 4 | Starry sturgeon | Acipenser Stellatus | Chondrostei | Acipenseriformes | Acipenseridae | Acipenser | Göl | Şirin su |